*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 411-418*
https://doi.org/10.62837/2024.3.411

**MƏHƏMMƏD AZAD**
**Azərbaycan Universiteti**
**Ceyhun Hacıbəyli küçəsi 71**

# VAQİF SƏMƏDOĞLUNUN YARADICILIĞINDA TRANSSENDENTALLIĞIN İSTİQAMƏTLƏRİ

## Xülasə

Vaqif Səmədoğlunun yaradıcılığına diqqətlə nəzər saldıqda transsendentallığın elementlərini üç istiqamətdə görmək mümkündür görmək mümkündür. Birinci istiqamət şairin Allaha olan münasibətdə özünü göstərir. Vaqif Səmədoğlunun yaradıcılığında Allaha münasibət xüsusi əhəmiyyət kəsb edir. Burada lirik qəhrəman özündən ayrılıb Allaha üz tutur. Səmədoğlu yaradıcılığında transsendentallığın ikinci istiqaməti insana münasibətdə təzahür edir. Belə ki, şair insanlara qarşı həssaslıq nümaiş etdirərək öz yaradıcılığında onlara xüsusi dəyər verir. Vaqif Səmədoğlunun yaradıcılığında dəlixana mövzusuna aid nümunələrdə insana, insanlığa münasibət orjinaldır. Hər kəsin nəzərindən kənarda qalan, çox zaman sezilməyən fərdlərin də insan olduqları nəzərə çatdırılır. Şairin yaradıcılığında transsendentallığın üçüncü istiqamətini özünü başqa varlıqlarda göstərir. Belə ki, şairin yaradıcılığında heyvanlara, quşlara, təbiətə özünəməxsus əhəmiyyət verilmişdir. Vaqif Səmədoğlunun yaradıcılığından gətirdiyimiz nümunədən də aydın olur ki, yağışın yağmağı, ildırımın çaxmağı təbiəti etibarilə insana xoş təəssürat bağışlasa da, heyvanlara, quşlara, təbiətə zərər vurur. Məhz Vaqif Səmədoğlunun Allaha və onun yaratdığı bütün varlıqlara belə bir münasibəti onun yaradıcılığında xüsusi əhəmiyyət kəsb edir.

**Açar sözlər:** transsendentallıq, Allah, insan, təbiət.

Vaqif Səmədoğlu yaradıcılığına diqqət yetirdikdə transendental dəyərlərin özünü qabarıq şəkildə göstərdiyini görürük. Transsendental dəyərlər insanın özünə qapanıb, özünə həsr edilməsi deyil, özündən kənar ətraf aləmə yönəlməsi prosesini ifadə edir. Bu nəzər nöqtəsindən baxanda şairin bədii irsində insanın özündən təcrid olunması, ətraf aləmə yönəlməsi, ətraf aləmə münasibəti özünü daha çox büruzə verir. Araşdırmalarımız nəticəsində Səmədoğlu yaradıcılığında transsendental dəyərlərin üç istiqamətdə özünü döstərdiyini söyləyə bilərik. İlk növbədə şairin yaradıcılığındakı transsendentallıq İlahiyə münasibətdədir. Şairin bədii irsinin əksəriyyət hissəsi demək olar ki, Allaha ünvanlanır. Hətta şairin "Tənhalıq şairin iş yeridir" başlıqlı müsahibəsində belə bir ifadə işlətdiyini görürük: "Mən özümlə dialoqa girmirəm. Heç monoloq da demirəm. Sadəcə, "cavabsız suallar" özümlə

söhbətin mövzusudur: - Allah varmı? Mən kiməm? Bir şeirimdə dediyim kimi "Bu dünyaya gələn gündən fikirləşdim, o dünya nədir?"". Bu müsahibədən göründüyü kimi şairin həyat fəlsəfəsi Allahı axtarmaq, Allaha qovuşmaq, özünü dərk etməkdir. Səmədoğlunun həyat fəlsəfəsi özünü adekvat şəkildə bədii irsində büruzə verir:

Allah, nə var, nə yox?
Məndən nə xəbər var?
Gecələri özüm sayaram,
Üzümə açılacaq neçə səhər var?
Bəyənəcəksənmi məni,
Bəndəni hansı gözlə görəcəksən?
Allah,
Özüm gəlim,
Ya kimisə göndərəcəksən?[4,256]

Özünü unudan şair, yalnız Allahla var olur. Allahdan özünü xəbər alır. Qəribədir ki, Vaqif Səmədoğlu yaradıcılığında tərki-dünyalıq, Allaha qovuşmaq hissi daha qabarıq görsənir. Şair "Allah, özüm gəlim, ya kimisə göndərəcəksən?" - deyərək sanki ölümə tələsir, can atır. Qəribə olansa burasıdır ki, şairin tərki-dünyalığı oxucunu ölümə təhrik etmir, əksinə, oxucuya stimul verib onu dünyanı, həyatı daha da dərindən öyrənib, tədqiq etməyə can atdırır.

Vaqif Səmədoğlu yaradıcılığında Allaha münasibətin əsas tərəflərindən biri də onun daim Allaha pənah aparması ilə bağlıdır. Şair Allahdan başqa hər kəsin aciz olduğunu anlayır. Onun üçün də bütün çətinliklərdən yalnız Allahı özünə dost tutmağı üstün bilir:

Yox,
çox da sıxılası yer deyil bura.
Burdan da bir çıxış yolu var,
dünya burdan boyük,
Allah burdakı insanlardan
qüvvətlidir axı! [4,273]

Şair həyatın ən çətin, dözülməz anlarında Allahın qüdrətini dərk edərək "Burdan da bir çıxış yolu var, Allah burdakı insanlardan qüvvətlidir axı!" – deyib özünə təskinlik verir. Təbii ki, həyatın bütün dözülməzliklərinə, insan ruhunun ağrısına, sızıltısına yalnız ilahi qüvvə dərman ola bilərdi.

Yox,
çox da baxılası yer deyil bura.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 411-418*

Burdan da bir baxış yolu var,
dünya burdan geniş,
Allah burdakı insanlardan
gözəldir axı![4,273]

Həmin şeirin ikinci bəndində isə Allahın başqa surətindən bəhs edilir. Birinci bənddə Allahın qüvvətindən bəhs edildiyi halda, ikinci bənddə Allahın gözəlliyindən bəhs edilir. Şair ömrünün 44-cü ilində dünyanın, insanların gözəl olmadığını fərqinə varır və ilahi gözəlliyə üz tutur: "Yox, çox da baxılası yer deyil bura. Burdan da bir baxış yolu var, dünya burdan geniş, Allah burdakı insanlardan gözəldir axı!". Göründüyü kimi artıq şair dünyanı, insanları və Allahı dərk edib Allahın hər şeyin fövqündə olduğunu bəyan edir.

Bu baxımdan Vaqif Səmədoğluna sağlığında ölən şair də deyə bilərik. Şairin sağlığında ölümü yaşadığını görə bilirik. Sanki şair bütün dünyadan, dünyanın səltənətindən, ləl-cəvahiratından əl üzüb ölümü özünə ən doğma məşuq seçib:

...Yağış yerə yetə bilmir,
Külək tozu ötə bilmir,
Ömür zalım bitə bilmir,
Ölüm, yaman yordum səni,
Orda-burda vurdum səni,
Qaça-qaça, addım-addım,
Ölüm, səni çox yaşadım...[4,310]

Şair "Qaça-qaça, addım-addım, Ölüm, səni çox yaşadım..." – deyərək həyatının hər anını, hər zərrəsini ölüm hissi ilə keçirdiyini söyləyir. "Yaşayaraq ölmək" ifadəsi müqəddəs bir fikri ifadə etmək üçün istifadə edilir. Belə ki, İlahi dinlərdə insanlara yaşayaraq ölmələri ibrətli bir hadisə kimi təsvir edilir. Yəni insanın yaşayaraq ölməsi ölünün dünya ilə bağlılığı nə qədərdirsə, onun da dünya ilə bağlılığı o qədər olmalıdır. Bu isə insanın yaşadığı müddətdə nəfsə mübtəla olması deyil, nəfsə hakim olması mənasına gəlir və Allaha haqqınca qul olması ilə nəticələnir. Vaqif Səmədoğlunun belə bir təfəkkürə sahib olduğunu müəyyən etdikdən sonra şairin bədii irsindəki tərki-dünyalıq, ölüm epizodlarının pessimizmə deyil, optimizmə işarə olduğunu anlayırıq.

Səmədoğlu yaradıcılığda transsendental dəyərlərin ikinci istiqaməti insan probleminə köklənmişdir. Bu insanın özünə aşiq olması deyil, içindəki eqosunu boğub öz eşqini insanlara, insanlığa həsr etməsi deməkdir. Bu baxımdan ilahi dinlərin bizə təlqin etdiyi digər bir fikrə diqqət yetirək. Bu dini-ruhani konsepeiyada belə bir anlayış var ki, insanın etdiyi bütün ibadətlər məhz insanın özünə görədir, yəni insanın öz mənafeyinə xidmət edir. Amma insanın insanlar qarşısındakı xidməti isə onun özünə görə yox, Allaha yaxud da insanlara görədir. Əgər bir insan cəfalara

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 411-418*
dözərək yaxud da cəfasız insanlara xidmət edirsə, məhz bu hal onun insani keyfiyyətlərindən xəbər verir. Buradan belə bir nəticə hasil olur ki, insanın insana münasibəti onun Allah dərgahındakı dərəcəsinə birbaşa təsir göstərir. İnsanın fitrətindən gələn İlahiyə qovuşma hissi vardır. Min illərdir ki, insan hər zaman axtarışdadır. Bəzən insanlar bunun səbəbini və məqsədini bilməyib kor-koranə axtarırlar. Bu axtarışlar nəticəsində insanlar müəyyən nəsnələr əldə edirlər. Fəqət həmin nəsnələr əldə edildikdən sonra da insanlar onunla kifayətlənə bilməyib yenə ehtiyac duyduqları nəsnələri axtarmağa can atırlar. Əslində isə insanın ehtiyac duyduğu yeganə nəsnə ilahi varlıqdır. Çünki insanın İlahi ilə xüsusi bir bağı vardır. Bu bağ isə insana Allahdan gələn bağdan ibarətdir. Müqəddəs kitablarda qeyd olunduğu kimi Allah insanı yaradıb ona öz ruhundan üfürmüşdür: “O, yaratdığı hər şeyi gözəl yaratdı, insanı (Adəmi) yaratmağa palçıqdan başaladı. Sonra onun nəslini xalis nütfədən bir qətrə dəyərsiz (zəif) sudan əmələ gətirdi. Sonra onu düzəldib insan şəklinə saldı və ona öz ruhundan (özünün yaratdığı ruhdan) üfürdü (həyat verdi). O sizə göz, qulaq və ürək verdi. Siz (bu nemətlərə) az şükr edirsiniz”.[2,141]. Müqəddəs kitab “Qur`ani-Kərim”in 32-ci surəsi “əs-Səcdə” surəsinin 7, 8 və 9-cu ayələrindən gətirdiyimiz sitata əsaslanaraq insanın ruhunun Allah ruhundan olduğunu söyləyə bilərik. Buradan da belə bir nəticəyə gəlmək olar ki, insanın öz şəxsi mənafeyindən keçib insanlara xidmət eləməsi bir növ ilahi ruha xidmət eləməsi deməkdir. Bununla da insanın min illər boyu axtarışında olduğu ilahi qüvvəyə qovuşması mümkündür. İnsanın Allaha qovuşmasını təmin edən ən “qısa”, “asan” yollardan biri məhz insanın insanlara qarşı olan münasibətindən asılıdır.

Vaqif Səmədoğlu yaradıcılığında insana münasibətin özünəməxsus yeri var. Şair öz bədii irsində insana irqindən, dinindən, ağıl səviyyəsindən asılı olmayaraq insani münasibətlərini hər zaman izhar etmişdir. Şairin yaradıcılığına diqqət yetirdiyimiz zaman orada lirik qəhrəmanın özünü unudaraq bütün varlığı ilə qarşı tərəfə aşiqliyini bildirir:

Bu pəncərədən görünən
və görünməyən anlarına
qurban.
Eşitmişəm xəstələnib anan,
anana dərman verən əllərinə
və ananın azarına qurban.
Deyirlər bu yaxınlarda
Moskvaya gedəcəksən,
ora gedən bütün hava
və dəmir yollarına qurban.
Bir gün yenə

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 411-418*

başınla salam verib,
keçəcəksən yanımdan.
Keç,
yanımdan keçən günlərinə qurban...[4,264]

Bu şeir nümunəsində aşiq nəinki məşuqa, hətta ona aid olan bütün vasitələrə də özünü qurban edir. Lirik qəhrəman “Bu pəncərədən görünən və görünməyən anlarına qurban” – deyərək məşuqa aşiqliyinin dərəcəsini göstərir. Şairin lirik qəhrəmanı o qədər aşiqdir ki, ağıla gələn bütün ehtimalları eşq nəzər nöqtəsindən dəyərləndirir. Şeirin sonrakı misralarında həmin hadisənin daha da qabarıq formasını görürük: “Deyirlər bu yaxınlarda Moskvaya gedəcəksən, ora gedən bütün hava və dəmir yollarına qurban”. Maraqlıdır ki, şair burada sevgilinin aid olduğu zamanı, məkanı, onun gedəcəyi və keçmək ehtimalı olan bütün yolları sevir və sevgiliyə qurban olduğu kimi ona aid olan və ona aid olması ehtimal edilən yollara da qurban olmağa hazırdır.

Vaqif Səmədoğlunun bədii yaradıcılığına diqqət yetirdikdə onun xüsusi diqqət və qayğıya ehtiyacı olan insanlara daha həssaslıqla yanaşdığını görürük. Ömrünün bir neçə ayını dəlixanada keçirən şair dəlixana sakinlərinin yaşayışı, həyat tərzilə tanış olub öz yaradıcılığında bunları işıqlandırmışdır. Şairin dəlixana mövzusuna həsr edilmiş şeirlərinə nəzər salaq.

Dəlixanada axşamdır,
Dəli Qabil yer süpürür.
İnsan hər yerdə insandır,
Ölməyibsə ömür sürür. [4,287]

Bu kiçik şeir parçasında şairin insanlıq tarixinə səyahət etdiyini görürük. Maraqlıdır, şair “İnsan hər yerdə insandır, ölməyibsə ömür sürür” deməklə nəyi nəzərdə tutur? Bunu müxtəlif cür anlayıb düşünmək olar. Belə ki, bu şeir nümunəsinin təhlilini həm mənəvi, həm də maddi cəhətdən həyata keçirə bilərik. Mənəvi cəhətdən deyə bilərik ki, şair insanın min illərdir keçirdiyi psixoloji düşüncə və dərk üsuluna toxunmaq istəyir. Yəni, insanın bütün dövrlərdə eyni tələbatda olduğunu söyləyir. İnsanlar yaşadığı zamandan və məkandan asılı olmayaraq hər an öz daxilində bir çatışmazlığın olduğunu dərk etmiş və ömrü boyu da həmin çatışmazlığı əldə etməyə çalışmışdır. Tarixdə zaman-zaman peyğəmbərlərin gəlməsi və həmin peyğəmbərlərin bəzilərinin özləri ilə ilahi kitab gətirmələri də məhz tarix boyu insanların mənəvi böhran içində olduqlarını və bu böhranı daima dəf etməyə cəhd etdiyini göstərir. Bu nümunəyə maddi cəhəddən isə belə yanaşa bilərik ki, insanlar tarix boyu hər zaman maddi problemlərlə üzləşmişlər. Ümumiyyətlə, insanların rahat həyat yaşamaları üçün maddiyat əsas amillərdən hesab edilir. Bunun üçün də ən qədim dövrlərdən insanlar maddi vəsait əldə etmək üçün çalışmış və

maddi imkanlarına görə müxtəlif qruplara bölünmüşlər. Burada varlı təbəqə hər zaman kasıb təbəqəni özü üçün çalışdırmış və onlara müəyyən qədər muzd vermişlər. Məsələnin maraqlı tərəfi budur ki, iki min il bundan əvvəl quldarlıq dövründə insanların bir qismi digərləri üçün necə "qul"luq edirdilərsə, mövcud cəmiyyətdə də eyni problem mövcuddur. Belə ki, hal-hazırda müasir dünyada insanların böyük bir qismi ömürlərini qul kimi keçirirlər. Sadəcə, məsələ burasındadır ki, elm, texnologiya inkişaf etdiyindən əllərində külünglə, bellə işləyən quldarlıq insanından fərqli olaraq, müasir insan qarşısında texnikayla, kompütürlə "qul"luq edir. Məlum şeir nüminəsinə verdiyimiz izahdan belə aydın olur ki, "İnsan hər yerdə insandır, ölməyibsə ömür sürür".

Yuxarıda qeyd etdiyimiz kimi Vaqif Səmədoğlu yaradıcılığında transsendental dəyərlər özünü üç istiqamətdə göstərir. Bunların ikisi haqqında yuxarıda müəyyən qədər danışdıq. İndi isə transsendental dəyərlərin üçüncü istiqamətinə nəzər yetirək. Məlum olduğu kimi birinci istiqamət İlahiyə, ikinci istiqamət insanlara köklənmişdir. Transendental dəyərlərin üçüncü istiqaməti isə digər canlılara yönəlmişdir. Yəni ki, Vaqif Səmədoğlu yaradıcılığında Allah və insanlardan başqa digər canlılara da xüsusi diqqət göstərilmişdir. Şairin bədii irsindəki nümunələr onun Allahın yaratdığı hər nəsnəyə bir dəyər kimi yanaşdığını göstərir:

İldırım çaxdı,
Yağış yağdı.
Təmizləndi, təzələndi hava,
Bir az rahat nəfəs aldıq...
Di gəl, bu ildırımdan
Hardasa bir ağac, bir budaq,
budaq üstə bir yuva yandı,
Hardasa bir quş yurdsuz qaldı.
Bir quş səsi qırıldı,
Bir dünya qaraldı...[4,159]

Bu nümunədə bizim həyatımıza yaxşı təsir göstərən hadisələrin digərlərinin həyatına pis təsir göstərməsinin müqayisəsini görürük. Göründüyü kimi şair ildırımın çaxmağını, yağışın yağmağını, havanın təmizlənməyini insanların rahat nəfəs almaları, rahat yaşamaları ilə nəticələndiyini göstərir. Ancaq digər tərəfdən də bu hadisələrin kimlərinsə həyatının zülmətə çevrilməsi kimi dəyərləndirilir. Belə ki, məlum hadisə nəticəsində insanlar özlərini rahat və xoşbəxt hiss etdikləri təqdirdə hardasa bir canlının – quşun yurdsuz qalmasını göstərir. Şair burada "Hardasa bir ağac, bir budaq, budaq üstə yuva yandı, hardasa bir quş yurdsuz qaldı. Bir quş səsi qırıldı, bir dünya qaraldı" deməklə insana dünyada insandan başqa varlıqların

olduğunu xatırladır. Allah müqəddəs kitablarından olan "Qur`ani-Kərim"də heyvanlar haqqında onların Allahın dilsiz bəndələri olduğunu deyir. Hər kəs heyvanları incitdiyinə görə bir gün cavab verəcək. Problemə bu nəzər nöqtəsindən yanaşdıqda məsələnin nə qədər əhəmiyyət kəsb etdiyini daha aydın analayırıq. Doğrudur, yer üzünün əşrəfi insandır, ancaq insandan qeyri yaradılmışları da görünüş dairəsindən kənarda saxlamaq olmaz. Məhz şair də məsələyə bu prizmadan yanaşaraq insanın və digər canlıların birləşən nöqtələrini dilə gətirərək onların varlığını bizə xatırladır.

## Ədəbiyyat

1. İnstitutu, A. M. (2016). *Müstəqillik dövründə Azərbaycan ədəbiyyatı.* Bakı: Elm və Təhsil.
2. *Qurani-Kərim.* (2012). Bakı: Nurlar.
3. Səmədoğlu, V. (2004). *Uzaq yaşıl ada.* Bakı: Şərq-Qərb.
4. Səmədoğlu, V. (2005). *Mən burdayam, İlahi.* Bakı: Gənclik.
5. Səmədoğlu, V. (2016). *Gürzəçöl yazıları.* Bakı: Parlaq İmzalar.

**АСПИРАНТ МОХАММАД АЗАД**

## НАПРАВЛЕНИЯ ТРАНСЦЕНДЕНТНОСТИ В ТВОРЧЕСТВЕ ВАГИФА САМЕДОГЛУ

## РЕЗЮМЕ

Если внимательно присмотреться к творчеству Вагифа Самадоглу, то можно увидеть элементы трансцендентности в трех направлениях. Первое направление проявляется в отношении поэта к Богу. В творчестве Вагифа Самедоглу особое значение имеет отношение к Богу. Здесь лирический герой оставляет себя и обращается к Богу. В творчестве Самадоглу проявляется второе направление трансцендентности по отношению к человеку. Таким образом, поэт проявляет чуткость к людям и придает им особую ценность в своем творчестве. В творчестве Вагифа Самадоглу своеобразно отношение к человеку и человечности в примерах, связанных с темой сумасшедшего дома. Обращается внимание, что особи, которые остаются вне всеобщего внимания и часто не замечаются, тоже являются людьми. В творчестве поэта третье направление трансцендентности проявляется в других существах. Таким образом, животным, птицам и природе в творчестве поэта придавалось особое значение. На примере творчества Вагифа Самедоглу видно, что дождь и молния по своей природе производят на людей приятное впечатление, но вредят животным, птицам и природе. Именно отношение Вагифа Самадоглу к Богу и всем созданным им существам имеет особое значение в его творчестве.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 411-418*

**Ключевые слова:** трансцендентность, Бог, человек, природа.

**MASTER MUHAMMAD AZAD**

**THE DIRECTIONS OF TRANSCENDENCE IN VAGIF SAMADOGLU'S CREATIVITY**

**SUMMARY**

If you look closely at Vagif Samadoglu's work, you can see the elements of transcendence in three directions. The first direction shows itself in the attitude of the poet towards God. In Vagif Samadoglu's work, attitude towards God is of special importance. Here the lyrical hero leaves himself and turns to God. In Samadoğlu's work, the second direction of transcendence is manifested in relation to man. Thus, the poet shows sensitivity towards people and gives them special value in his work. In Vagif Samadoglu's work, the attitude towards man and humanity is original in the examples related to the theme of the madhouse. It is brought to the attention that the individuals who remain out of everyone's attention and are often not noticed are also human. In the work of the poet, the third direction of transcendence shows itself in other beings. Thus, animals, birds, and nature were given special importance in the poet's work. From the example of Vagif Samadoglu's work, it is clear that rain and lightning, by their nature, give people a pleasant impression, but they harm animals, birds, and nature. It is Vagif Samadoglu's attitude towards God and all the creatures created by him that is of particular importance in his work.

**Key words:** transcendence, God, man, nature.

**Rəyçi:** f.e.d., prof. Qorxmaz Həsi oğlu Quliyev